Poliglot / №11 (94) / 10 oktyabr 2006-cı il

## *KONSUL VLAD LİPŞÜDZ ADU-DA OLMUŞDUR*

Sentyabrın 29-da 1[1]li ingilis dili fakültəsinin dekanı, professor Əfqan Abdullayevin dəvətilə ABŞ-ın Azərbaycandakı səfirliyinə yeni təyin olunmuş konsul Vlad Lipşüdz ADU-da olmuşdur. Amerikalı diplomat universitetimizlə, onun uğurları, xarici əlaqələri, təlim-tərbiyə sahəsində aparılan işlərlə tanış olmuş, ABŞ-da təhsil almaq istəyən tələbələrə viza verilmə məsələsinə aydınlıq gətirmiş və bu problemin həll olunacağını diqqətə çatdırmışdır.
Amerikalı qonaq professor Əfqan Abdullayevin müşayiətilə universitetimizdə fəaliyyət göstərən mərkəzlərdə, kitabxanada və auditoriyalarda olmuş, İngilis dilinin leksikologiyası və İngilis dilinin tarixi və leksikası kafedralarının əməkdaşları ilə fikir mübadiləsi aparmışdır.
Sonda qonaq tələbələrlə də görüşlər keçirmək niyyətini də açıqlamışdır.

© ADU 2006.